# AZƏRBAYCAN RESPUBLİKASI MƏRKƏZİ BANKININ NOTLARININ

## B U R A X I L I Ş   Ş Ə R T L Ə R İ

1. **Emitentin tam adı və hüquqi ünvanı:** Azərbaycan Respublikasının Mərkəzi Bankı; AZ1014, Bakı şəhəri, R.Behbudov küç.90;
2. **Notların buraxılışı haqqında qərarın qəbul edildiyi tarix və onu qəbul etmiş orqanın adı:** 27 dekabr 2023-cü il, Mərkəzi Bankın İdarə Heyəti (protokol №63)
3. **Notlar:** emitent tərəfindən buraxılan qiymətli kağızlar;
4. **Notların növü**: diskontlu;
5. **Notların yerləşdirilməsi vaxtı:** yerləşdirilmə ilə bağlı müvafiq qaydada verilmiş elanda göstərilən tarix;
6. **Notların nominal dəyər üzrə ümumi məbləği:** 5.000.000.000 (beş milyard) manat;
7. **Notların nominal dəyəri:** 100.000 (yüz min) manat;
8. **Buraxılan notların sayı:** 50.000 (əlli min) ədəd;
9. **Notların yerləşdirilməsi zamanı ilk mülkiyyətçilər:** Azərbaycan Respublikasında fəaliyyət göstərən banklar.
10. **Hər bir notla təsbit edilən hüquqlar:** notların mülkiyyətçiləri notların ödəniş tarixində emitentdən notların nominal dəyərini almaq hüququna malikdir. Notlarla alqı-satqı, girov, REPO və digər əqdlər bağlanıla bilər. Bu əqdlər üzrə tərəf qismində istənilən şəxs çıxış edə bilər;
11. **Hərrac zamanı bir iştirakçı tərəfindən təqdim edilə biləcək rəqabətli sifarişin həcmi üzrə limit:** məhdudiyyət tətbiq olunmur;
12. **Hərracda bir bank tərəfindən təqdim edilən sifarişlərin növü və sayı:** 1 rəqabətli;
13. **Hərrac zamanı eyni qiymətlə təqdim edilmiş sifarişlərin bölgüsü**: mütənasib qaydada;
14. **Hesablama bazası:** ildəki günlərin sayı 360 gün götürülməklə;
15. **Hərracın baş tutması üçün fərqli iştirakçı sayı:** ən azı 5 (beş);
16. **Notların əlavə yerləşdirilməsi:** notların ilkin yerləşdirilməsi zamanı satılmamış həcm üzrə əlavə satış həyata keçirilə bilər;
17. **Notların dəyərinin ödənilməsi üsulu:** pul ilə;
18. **Alıcıların notları ala biləcəkləri yer:** “Bakı Fond Birjası” Qapalı Səhmdar Cəmiyyəti; Bakı şəhəri, Bülbül pr.19 (faktiki ünvan: Bakı şəhəri, Həsən Bəy Zərdabi küçəsi 2A) və ya Azərbaycan Respublikasının Mərkəzi Bankı (Blumberq Ticarət Platformasında);
19. **Notların uçotu və onlara olan hüquqların keçməsi üzrə xidmətləri göstərən depozitar:** Azərbaycan Respublikasının Milli Depozit Mərkəzi; Bakı şəhəri, Bülbül pr.19 (faktiki ünvan: Bakı şəhəri, Həsən Bəy Zərdabi küçəsi 2A).